GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY

[www.qurtulush.se](http://www.qurtulush.se)
[qurtulush.partiyasi@gmail.com](mailto:qurtulush.partiyasi@gmail.com)

*Sevgili millətimiz, keçən həftədən başlayaraq "Güney Azərbaycan Qurtuluş Partiyası"nın Siyasi Bölümü tərəfindən Həftəlik Yorum adı altında hər həftə içində dünyada üzverən və bölgəmizi etgiləndirən siyasal olayların araşdırılması başlamışdır. Umarıq Partiyamızın Siyasi Bölümünün bu çabası millətimiz üçün verimli olsun!*

**Orjinal mətni sancaqdan alınız lütfən**

**Həftəlik Yorum!**
**(2)**
**2008-11-26**

# ABŞ və İraq Güvənlik Anlaşması

Keçdiyimiz həftənin ən önəmli olaylarından biri ABŞ və İraq dövlətləri arasında yapılamsı ön görülən güvənlik anlaşmasıydı. Bu anlaşmaya görə, ABŞ və müttəfiq güclər 3 il daha İraqda qalacaqlar – yəni 2011-ilədək.

ABŞ-ın İraqda 154 min əsgəri və 10 min Güvənlik görəvlisi vardır. Təbiki, bu əsgərlərin və güvənlik güclərinin qullandığı silah, arac və gərəkləri də vardır. Bu silah, arac və gərəklərin nə qədər, hansı texnolojik özəllikdə olduğu haqında olan bilgilər çox yetərsizdir. Sözsüz ki, belə bilgilərin əldə olmaması durumunda, ABŞ-ın bölgədə və İraqda sürdürdüyü pılan və proqramları haqqında tam ehatəli və kəsin yorum yapmaq olduqca çətindir. Bu anlaşmanın bölgə ölkələrinə, özəlliklə İrağa göstərdiyi etginliyin necə olacağını, Güney Azərbaycan Qurtuluş Partıyasının pəncərəsindən baxmağa çalışacayiq.

ABŞ-ın Əfqanıstan və İraq savaşları haqqında çeşidli yorumlar yapılmış və yapılmaqdadır. Bir çox yorumcuya görə, bu savaşlar dünyada yeni bir düzənin doğum sancılarıdır. Lakin, Böyük Ortadoğu Planı deyilən proyektin ABŞ-də iş başına gələcək Demokratlar tərəfindən dəvam edib-edilmiyəcəyi önümüzdə olan yeni dönəmdə özünü göstərəcəkdir.
Yuxarıda adı keçən anlaşma mətninin girişində belə gəlir: *"Bu anlaşma ABŞ və İraq millətinin fədakarlığı ilə özgür, demokratik, çoxulcu (Ploralist), federal və bütöv İraq qurma yolundakı mücadiləsinin sonucudur"* Bu ifadələr, ABŞ-ın İraqda arzuladığı sistemində necə olması haqda bilgi verməkdədir. Əslində ABŞ-ın belə davranışı, yalnız İrağa görə deyil, həm də Ortadoğu üçün stratejik dövlət modeli kimi özünü göstərməkdədir.

Çeşidli etniklərdən, dinsəl və məzhəbsəl qruplardan oluşan İraq ölkəsi, illər boyu Səddam Hüseyn və Bəəs totalitarizmi tərəfindən basdırılan siyasal-sosial tələblərin nifrətə dönüşdüyü bir coğrafiya olaraq parçalı bir yapıya sahibdir. Biz, İraqdan söz edərkən hankı İraqdan söz etdiyimizi bildirməmiz gərəkir. Çünki İraqda hər etnik, dinsəl və məzhəbsəl qrupun ayrı-ayrı çıxarları vardır. Elə bu çıxarlara görə, hər bir grupun fərqli bir İraq tanımı da çox normaldır. Ancaq, bütün bu ixtilaflara baxmayaraq kürdlər dışında, Şiə və Sünni ərəblərin habelə türkmənlərin bugünədək hər hansı İrağı parçalama kimi bir amacları ortaya çıxmamışdır. Amma hər kəsin bildiyi kimi Kürdlərin belə bir arzuları və pılanları vardır. İraqda istər Şiələr, istər Sünnilər, istərsə də Türkmənlər arasında olan ideolojik fərqliklərə baxmayaraq güclü və bütöv bir İraq dövləti istənilməkdədir. Bu arada, bəzi zamanlar kürdlər tərəfindən də eyni görüşlər sərgilənsə də, inandırıcı səbəblərə dayanmadığından ciddiyə alınmayır.
Kürdlər ABŞ-ın İraqda qalmasını hər kəsdən daha çox istəyirlər. Kürdləri bölgədə sevən yoxdur. Amerika-İraq savaşından yararlanaraq gərəyindən daha çox mənafe güdümündə olan kürdlərin nifrətə uğraması qonşu ölkələr və İraqdakı başqa etniklər tərəfindən hardasa aydıncasına görünməkdədir. ABŞ əsgərlərinin 3-il daha İraqda saxlanmasıyla kürdlərin İraqda daha da güclənməsinə yol açacaqdır. Sözsüz ki, bu tutum, kürdlərin gərçəkləri görməməsinə nədən olacaq və onlar üçün böyük problemli gələcək ərməğan edəcəkdir. ABŞ-ın

kürdlərin yanında yer alması və onları ölçüdən artıq qoruması, əslində kürdlər üçün, öz güc meyarlarını bilmək yolunda böyük əngəldir. Belə ki, ABŞ-ın 2011-ci ildə İraqdan çəkilməsilə, kürdlərin daha gərçəkçi və qonşu xalqların haqlarını gözə alaraq hərəkət etmələri görünəçəkdir. Kürdlər bölgə xalqlarıyla baş-başa qalan zaman, Kərkük iddialarını və terrorist qruplardan (PKK-PEJAK) himayə etdiklərini bir daha gözdən keçirmə zorunda qalacaqlar. Başqa yandan isə, ABŞ-ın İraqdan çəkilməsilə gizli saxlanılan Kürk içi geniş ixtilaflar və görüş ayrılıqları da özünü göstərməyə başlarkən Kürd bölgəsində olan siyasal-sosial problemlər və "Barizani" Diktatorluğunun da gərçək üzü su üstünə çıxacaqdır.

Bu anlaşmanın İran açısından doğuracağı sonuclara gəldiyimizdə isə, Batılı istixbarat servislərinin verdiyi bilgilərə görə, İran 2009-dan 2015-ci illər arasında nüvə bombasına sahib olabilər. Təbi ki, İranın totalitar və ırqçı rejiminin nüvə bombasına sahib olmasına ABŞ və Batılı ölkələr göz yummayacaqlar.
Bu anlaşma, ABŞ-ın İranla 3-il daha qonşu olacağını bəlirləyir. Bu da, ABŞ-a İranı daha yaxından izləmək və kontrol etmək imkanı verir. ABŞ-ın bölgədə olan əsgəri varlığı İranı hər zaman narahat etmişdir çünki, ABŞ-ın bölgədəki əsgəri varlığı Ortadoğunun hakim gücü olmaq istəyən İranı və bu ölkənin yayılmaçı politikalarının qarşısında bir əngəl oluşdurmaqdadır.
İran Fars hakimiyyəti, bu anlaşmaya etirazını həm dış işləri sözçüsü, həmdə İraqdakı səsi olan və İraqın Nəsrullahı olmaya hazırlanan Muqtəda Əl-sədr vasitəsilə bildirmişdir.
İrana görə, ABŞ-ın bölgədəki varlığı İranın bölgədə etgin bir güc olaraq hərəkət etməsi önündəki tək əngəl olmaqla qalmayıb, bölgəsəl dəngələrin İranın əleyhinə oluşmasına səbəb olur. İran və İraq əski düşməndirlər. Bu məntiqdən hərəkət edən İran dövləti, yaranan hər fürsətdən istifadə edərək, İraqda iqtidarın ən böyük ortağı olan Şiə qolundan yararlanaraq əski düşməndən yeni bir dost və hətta stratejik bir müttəfiq yaratmağa çalışır. Ancaq bu çabalara baxmayaraq ABŞ-ın İraqda 2011-ci ilə qədər qalması İranın bu pılanlarını axsatmaqdadır.
Anlaşma layihəsində Şiələrin israrı üzərinə artırılan *"ABŞ, İraq torpaqlarını üçüncü bir ölkəyə saldırmaq üçün qullanamaz."* maddəsinə baxmayaraq bir çox yorumcuya görə, ABŞ, 2011-ci ilə qədər İran məsələsini həll etməyə çalışır. ABŞ, İranı barışçıl yollarla

nüvə proqramından vaz keçirəməzsə, İraq üzərindən Tehran hakimlərinə qarşı saldırması gözlənilir. Ona görə, İran şovenist rejiminin bu anlaşmaya qarşı çıxmasını normal qarşılamaq gərəkir.

Güney Azərbaycan Qurtuluş Partiyası
Siyasi Bölüm.
Yazar: U.E
2008-11-26